

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 190 (23.602)

4 noyabr 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Türkiyə nümayəndə heyəti ilə görüşüb





Noyabrın 3-də Türkiyənin Baş Naziri olmuş Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış və onları Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirərək demişdir: Qədim tarixi köklərə malik olan dostluq və qardaşlıq münasibətlərimiz, milli liderlərimiz – Mustafa Kamal Atatürk və Heydər Əliyevin xalqlarımıza miras qoyduqları birlik və həmrəylik bu gün daha da möhkəmlənmiş, Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. Hazırda hər iki ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq ikitərəfli münasibətlərimiz inkişaf etdirilir. Ölkələrimiz arasındakı əlaqələrin inkişafında Azərbaycanın Naxçıvan Muxtar Respublikasının da mühüm rolu vardır. Muxtar respublika ilə Türkiyə Respublikası arasındakı iqtisadi-ticarət, elm, təhsil, nəqliyyat, ordu quruculuğu və digər sahələrdəki əməkdaşlıq ilbəil genişlənir.

“Azərbaycan və Türkiyə xalqları tarixən bir yerdə olublar. Bu gün də bir yerdədirlər və eyni mövqedən çıxış edirlər”, – deyən Ali Məclisin Sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizə verdiyi hərtərəfli dəstəyə görə qardaş Türkiyə dövlətinə, rəhbərliyinə, Silahlı Qüvvələrinə hörmət və ehtiramını bildirmişdir. Həmçinin Ali Məclisin Sədri Türkiyənin İzmir şəhərində baş vermiş zəlzələ və insan tələfatı ilə bağlı kədərini ifadə etmiş, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına başsağlığı vermiş, yaralananlara və xəsarət alanlara şəfa diləmişdir.

Naxçıvan Muxtar Respublikasına səfəri bir millətin iki dövlətinin göstəricisi kimi dəyərləndirən Ali Məclisin Sədri bir daha qonaqları Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir.

Binəli Yıldırım Naxçıvanda olmaqdan məmnunluğunu ifadə etmiş, göstərilən səmimi münasibətə görə nümayəndə heyəti adından minnətdarlıq edərək demişdir: “Qarabağın işğaldan azad olunması uğrunda qəhrəmancasına vuruşan bütün əsgərlərimizə qələbə arzulayır, şəhidlərimizə Allahdan rəhmət, yaralananlara cansağlığı diləyirəm. Naxçıvan Muxtar Respublikasının Türkiyə üçün xüsusi yeri vardır. Naxçıvan Anadolunun Türk dünyası ilə əlaqəsi olan önəmli muxtar respublikadır. Biz Naxçıvanı Türk dünyasına açılan qapı olaraq görürük. Ona görə də Naxçıvanla əlaqələrin inkişafına mühüm əhəmiyyət veririk. Bu il Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında Naxçıvanla əlaqədar önəmli qərarlar qəbul edildi. Bu qərarlardan biri də Naxçıvana Qars üzərindən dəmir yolunun çəkilməsi ilə bağlı oldu”.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sonda Binəli Yıldırım Ali Məclisin Sədrinə xatirə hədiyyəsi təqdim etmişdir.

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım, Milliyətçi Hərəkət Partiyasının Türkiyə Parlamentindəki fraksiyasının sədri Cəlal Adan və Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyə nümayəndə heyətinin Naxçıvana səfəri ilə bağlı mətbuat bəyanatı olub



Noyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun Türkiyə Respublikasının Baş Naziri olmuş Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdən sonra mətbuata bəyanatla çıxış olmuşdur.

Türkiyə Respublikasının Baş Naziri olmuş Binəli Yıldırım demişdir: Azərbaycanın Qarabağın işğaldan azad olunması yolunda əldə etdiyi qələbələrdən böyük qürur duyuruq. Dağlıq Qarabağ münaqişəsində Azərbaycan tək deyil. Türkiyə hər zaman Azərbaycanın haqq mübarizəsində onun yanında olub, bu gün də yanındadır. 2009-cu ildə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının əsası Naxçıvanda qoyuldu. Mustafa Kamal Atatürkün türk qapısı adlandırdığı Naxçıvan türk coğrafiyasını Anadolu ilə birləşdirir. Naxçıvan Muxtar Respublikasının inkişafından böyük qürur duyuruq. Bugünkü səfərimizin məqsədi də bərabərlik və həmrəyliyimizi ifadə etməkdir. Ölkə Prezidentlərinin iradəsinə uyğun olaraq Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bu il keçirilən iclasında qəbul edilən Qars-Naxçıvan dəmir yolu və qaz boru kəməri layihəsinin təsdiq olunması mühüm əhəmiyyət daşıyır. Türkiyə bundan sonra da Azərbaycanın və Naxçıvanın yanında olacaqdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Bu gün Türkiyə dövlətinin nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasına gəlməsi ölkələrimiz arasındakı dostluq və qardaşlığın əyani ifadəsidir. Nümayəndə heyətinə görkəmli siyasi xadim Binəli Yıldırımın rəhbərlik etməsi də Türkiyə dövlətinin bu səfərə verdiyi əhəmiyyətin və Azərbaycana göstərilən siyasi dəstəyin əyani ifadəsidir. Bütün bunlara görə bir daha Türkiyə dövlətinə və rəhbərliyinə minnətdarlıq edirik.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının iclası keçirilmişdir

Noyabrın 3-də Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının iclası keçirilmişdir. İclasda “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 22-ci maddəsinə əsasən təşkilati işə baxılmış, komissiyanın sədrinin seçilməsi məsələsi müzakirə olunmuşdur.

Müzakirələrdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 3 noyabr tarixli Qərarı ilə Mərkəzi Seçki Komissiyasının üzvü təyin edilmiş Əliyev Əjdər Zahid oğlu Mərkəzi Seçki Komissiyasının sədri seçilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Elmi konfrans təşkil edilib

Naxçıvan Dövlət Universitetində “Çağdaş Azərbaycan dilinin aktual problemləri” adlı elmi konfrans keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov Azərbaycan dilinin xalqımızın mənəvi varlığını ifadə edən əsas amil olduğunu deyib. Bildirilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dil siyasəti bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Diqqətə çatdırılıb ki, muxtar respublikamızda da dövlətimizin dil siyasəti uğurla həyata keçirilir.

AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev “Naxçıvan dialekt və şivələrinin öyrənilməsi məsələləri” mövzusunda çıxışında qeyd edib ki, bu və ya başqa ərazinin ədəbi dildən və bir-birindən fərqlənən yerli danışığı dialekt adlanır. Hər bir dildə bir neçə dialekt ola bilir. Dialekt fərqləri dilin həm fonetik sistemində, həm lüğət tərkibində, həm də qrammatik quruluşunda özünü göstərir. Azərbaycan dilindən daha dolğun, qanunauyğun şəkildə istifadə olunması üçün maarifləndirmə işinin aparılması və ictimai diqqətin bu işə cəlb edilməsindən ibarət olduğu bildirilib.

Universitetin Azərbaycan dili və ədəbiyyatı kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Sədaqət Həsənova “Azərbaycan dilinin dialektologiya, nitq mədəniyyəti və üslubiyyat sahəsindəki problemləri” mövzusunda məruzəsində vurğulayıb ki, nitq mədəniyyəti xalqın mədəni səviyyəsi ilə ölçülür. Məlumdur ki, mədəni səviyyə xalqın bütün təbəqələrinin öz ana dilini bilməsi, ona qayğı göstərməsi, onu sevməsi ilə bağlıdır. Professor ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsində, onun qorunmasında və inkişafında göstərdiyi misilsiz xidmətlərindən ətraflı bəhs edib.

Tədbirdə çıxış edənlər ədəbi dil normalarının qorunmasında, Azərbaycan oxucusunun və tamaşaçısının ədəbi-bədii zövqünün formalaşmasında dövlətlə yanaşı, bütövlükdə, cəmiyyətin mühüm rol oynadığını bildiriblər.

**Səadət ƏLİYEVA**



Müasirləşən kəndlərimiz

# Əzəmətli dağların köksünə sığınmış sərhəd kəndi

## *Bu kənd tarixi yaddaşımız və sabaha inamımızın ən gözəl nümunəsidir*

*Orada bir kənd var. Dağlar əhatəsində adi bir kənddir. Amma hər nişanəsində bir qeyri-adilik vardır. Bu hansı kənddir və qeyri-adiliyi nədədir? – bu suala cavab axtarırsınız. Elə isə yazını oxumağa davam edin…*

### *Cəsur, yenilməz Azərbaycan əsgəri keşik çəkir bu kəndə*

Əzəmətli, vüqarlı dağlar əhatəsinə sığınan qalanı xatırladır bu yurd yerimiz. Qartalların qıy vurduğu dağlarının zirvəsində yayın ortasınadək qar ərimir. Yamyaşıl çəmənləri, bəhərli bağları çaylarının, bulaqlarının həzin səsi ilə cana gəlir. Zəmzəm suyuna bənzər kəhrizləri, qədim qalaları, hamamı, dəyirmanı, məscidləri, bir sözlə, hər daşı, qayası bir tarix danışır bu kəndin. Füsunkar, mülayim təbiətinin bəxş etdiyi nanəsi, kəklikotusu, çaşırı, baldırğanı min bir dərdin dərmanıdır. "Əldən tutmaq Əlidən qalmışdır" zərb-məsəlini əməldə yerinə yetirən mehriban, səmimi insanların kəndidir bu yaşayış məntəqəsi. Toya, yasa, iməciliyə, bütün xeyir-şər işlərinə elliklə yanaşılır. İnsanların məişətində, adət-ənənələrində, mədəniyyətində öz əksini tapan birlik, bərabərlik isə könüllülüyün ən gözəl nümunəsidir bu kənddə. Bu yurd yeri həm də gözəl adətlərin, qəlbaçan, incə və xoşməramlı əlamətləri ilə inamın, saf əqidənin, qonaqpərvərliyin ünvanıdır.

Azərbaycan elinin incisi Ordubaddan şimal-şərqə bir yol gedir. Hacı Mahmuddan keçir, sonra Səfər dikini, Əli daşını adlayır, Gen dərəyə yol alırsan. Hamam daşı, Anabatdan keçəndən sonra köhnə dəyirman, qışda qarı çox olan "Axbur" deyilən yer görünür. Diki qalxdın, Gənzənin havasını udursan, artıq Gənzə torpağındasan. Burada Günəş Qırxkeşdən çıxıb, Qapı Daşında batır. Ərazisindən keçən Gənzəçay Zəngəzur silsiləsinin cənub-qərb yamaclarından başlanır, Ordubad şəhəri yaxınlığında Araz çayına tökülür. Arazın sol qolu olan bu çayın dili olsa, nələrdən danışar – kim bilir…

### *Gənzə Ermənistanla sərhəddə yerləşir*

Gənzənin adı da özü kimi qədimdir. Tədqiqatçıların "Gənzə" toponimi – oykonimi haqqında müxtəlif fikirləri olsa da, bəzi alimlər onu ərəb-fars mənşəli sözlərlə əlaqələndirsələr də, onların əksəriyyəti bu adın Gəncə şəhərinin adı ilə eyni kökdən olması qənaətindədirlər. Tədqiqatçıların qənaəti belədir ki, Gənzə kəndinin adı sak tayfalarının bu ərazilərdə məskunlaşması ilə əlaqədar yaranmış, təxminən, Kanzak-Kənizək-Kənzək şəklində inkişaf yolu keçərək indiki Gənzə şəklinə düşüb. Əvvəlki adı Kənzə olub və 1 mart 2003-cü ildən dəyişdirilərək Gənzə adlandırılıb. Kənddə indiyədək qalan bir neçə maddi mədəniyyət nümunəsi, xüsusilə qəbir daşları onun qədim tarixə malik, bölgənin əhəmiyyətli və inkişaf etmiş yaşayış məskənlərindən biri olduğunu sübut edir. Ordubadın ən ucqar yaşayış məskəni hesab olunur Gənzə. Bu kəndin söykəndiyi Soyuq dağı Ermənistanla sərhəddədir. İlin yarısından çoxunda başı qarla örtülü dağların ən yüksək mövqelərində Vətənimizin keşiyini çəkir, torpaqlarımızın toxunulmazlığını qoruyur igid əsgərlərimiz. Kəndin icra nümayəndəsi Qürbət Əliyev deyir ki, biz sərhəddə yaşayırıq, igid əsgərlərimiz təhlükəsizliyimizi qoruyurlar. Yerli sakinlərdə böyük ruh yüksəkliyi vardır. Ən güclü silahımız isə qurub-yaratmaqdır. Bununla biz mənfur düşmənə göstəririk ki, Vətənimizə, elimizə bağlıyıq, qurub-yaradır, abadlıq işləri aparırıq və həmişə doğma yurdumuzda qalacağıq. Dövlətimizin böyük qayğısı sayəsində muxtar respublikamızda əmin-amanlıq, sabitlik olub, həmişə də olacaq, inşallah. Allah igid əsgərlərimizin yardımçısı olsun. İnanırıq ki, qəhrəman, mətanətli Ordumuz Vətənimizin işğal altında qalan digər torpaqlarını da azad edəcək, qələbələrlə bizi sevindirəcək.

### *Abadlıq-quruculuq işləri gözəllik qatıb kəndə*

Tarixi qorunub saxlanılmaqla müasirləşdirilir, inkişaf etdirilir Gənzə. Qürbət müəllim deyir ki, qızım, artıq 90-cı illərin çətin, mürəkkəb günlərindən əsər-əlamət qalmayıb. Bu gün müstəqil dövlətimiz gündəngünə inkişaf edir, möhkəmlənir. Ölkəmizdə, eləcə də muxtar respublikamızda insan amilinə qayğı, diqqət ən yüksək səviyyədədir. Bu qayğı özünü Gənzə kəndinin timsalında da aydın göstərir. Kənd əhalisi fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təmin edilir, çörəyimiz də ki boldur. Bu, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə sadiq olan Ali Məclisin Sədri cənab Vasif Talıbovun əsl Vətən, millət təəssübkeşliyindən, bu xalqın layiqli övladı kimi daim muxtar respublikanın bu gününün, gələcəyinin qayğıları ilə yaşamasından, atdığı bütün addımlarda əhalinin rifahını düşünməsindən irəli gəlir. Baxın, bizim kəndimiz aparılan abadlıq, quruculuq tədbirləri ilə yeni həyat qazanıb. 2011-ci ildə tikilib istifadəyə verilən 306 yerlik kənd tam orta məktəbinin binası elmə, təhsilə göstərilən qayğının nümunəsidir. Bu məktəbdə ölkəmizin gələcəyi üçün əsl vətəndaşlar yetişdirilir. 2003-cü ildə yaradılan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik də artıq yeni binada fəaliyyət göstərir. Kənd yollarına asfalt örtük salınması əhalinin gediş-gəlişinin rahatlığına xidmət edir, 2007-ci ildən fəaliyyətdə olan həkim ambulatoriyasında isə əhaliyə lazımi səviyyədə tibbi xidmət göstərilir. Müsahibim qeyd edir ki, Ali Məclisin Sədri Gənzəni "Ordubadın incisi" adlandırıb. Bu, bizim kəndə verilən ən yüksək qiymətdir, qızım. Həmkəndlilərimin ən yaxşı xüsusiyyətlərindən biri də odur ki, qurulub-yaradılanlara hörmətlə yanaşır, onlar da yaşadıqları yerin abadlığına, firavanlığına öz töhfələrini verirlər. Gənzədə yaradılan nümunəvi şəraitə görə kənd sakinləri adından dövlətimizə minnətdarlığımı bildirirəm.

### *Torpağa bağlı, xoşxasiyyət insanları, yaşatdıqları adət-ənənələri ilə də diqqət çəkir Gənzə*

Öyrənirik ki, kəndin əhalisi 1710 nəfərdir. Əhali kənd təsərrüfatının müxtəlif növləri –əkinçilik, heyvandarlıq, arıçılıq, quşçuluqla məşğul olur. Ailə təsərrüfatçısı Səlah Məmmədovla həmsöhbət olduq. 58 yaşlı müsahibim deyir ki, dədə-babadan qalma arıçılıq peşəsini uzun illərdir, davam etdirir. Hazırda 50-yə yaxın arı ailəsinə qulluq edir, bir çox arıçılıq məhsulları hazırlayır. Naxçıvan şəhərində təşkil edilən "Arıçılıq məhsulları – bal festivalı"nda iştirak edən müsahibim arıçılara göstərilən dövlət dəstəyinə görə minnətdarlıq edir. Kənddə heyvandarlıqla məşğul olanlar içərisində Cəbrayıl Həsənov, Vahid Əsədov, Rəhman İbrahimov, Nicat Həsənov və başqaları vardır. Hamıya məlumdur ki, Ordubad meyvələri ilə diyarımızdan kənarda da yaxşı tanınır. Gənzədə də meyvəçilik qədim məşğuliyyət növüdür. Burada yetişdirilən meyvələr öz müxtəlifliyi ilə seçilir. Qərzəkli meyvələrdən olan şabalıd Şəki-Zaqatala zonasında geniş yayılsa da, Gənzədə də onu əkib-becərənlər vardır. Laçın Məmmədov, Rəhman İbrahimov, Ramin Rzayev kimi ailə təsərrüfatçıları oktyabr-noyabrda yetişən, tərkibi müxtəlif vitaminlərlə zəngin olan, qənnadı sənayesində, aşpazlıqda geniş istifadə edilən bu meyvəni becərməklə məşğuldurlar. İcra nümayəndəsi deyir ki, Gənzə kəndinin insanları torpağa bağlıdırlar. Təsərrüfatçıların əksəriyyətini bəzən belə bir sual düşündürür. – Görəsən, əksəm bitəcək? Gənzəlilər isə deyir ki, əksən niyə olmur? Olacaq, çünki torpağa axıdılan tər, çəkilən zəhmət heç vaxt əvəzsiz qalmır, mütləq qarşılığını götürürsən.

Müsahibim bildirir ki, kənddə uzunömürlü insanlara, ailələrə də daim diqqətlə yanaşılır. Ailə başçısının 90-a yaxın yaşı olan Bağırovlar ailəsinin evliliklərinin 50 illiyi yüksək səviyyədə qeyd edilib. Onların 4 övladı, 7 nəvəsi, 3 nəticəsi vardır. Belə uzunömürlü və nümunəvi ailələrin yubileylərinin keçirilməsi muxtar respublikada ailələrimizə, o cümlədən insanlarımıza göstərilən diqqətin ifadəsi olmaqla yanaşı, həm də gənc ailələr üçün gözəl nümunədir.

Kənd ağsaqqalı Nuru Məmmədovun 90-dan çox yaşı vardır. Onunla söhbət zamanı dedi ki, ötən əsrin 90-cı illərində yaşanan çətin günlər böyük şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişi ilə xoş günlərə çevrildi. İndi onun bəhrələrini görürük, dövlətin daimi qayğısı ilə firavan həyat yaşayırıq. Bilirsiniz, qızım, Gənzə kəndi Ermənistanla sərhəddə yerləşir. Bizim əsgərlərimiz Naxçıvanın sərhədlərini qoruyurlar. Bu gün düşmənlərin qorxulu yuxusu olan igid əsgərlərimizin sayəsində rahat nəfəs alırıq. İllərdir, düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad edilməsi üçün davam edən müharibədən isə qorxmuruq. Əksinə, o ağrılı günlərin şahidi kimi hamımız



qürurluyuq, sevincliyik. Gənzəlilər qüdrətli Azərbaycan əsgəri ilə, Prezidentimizlə fəxr edir. Qədim Azərbaycan torpağı olan Qarabağa yolumuz uzaq deyil, qızım. Müzəffər əsgərlərimizin digər torpaqlarımızı – Şuşanı, Laçını, Kəlbəcəri azad edəcəyi gün artıq çox yaxındır.

Gənzə kəndində qədim adət-ənənələr qorunub yaşadılır. Bu kənddə hər bir sahədə möhkəm birlik, bütövlük vardır. Qürbət müəllim bildirir ki, cavanlarımız, gənclərimiz qazandıqları pulu başqa yerə xərcləməz, israf etməzlər. Lazım gəldikdə kəndimizin abadlığı, ehtiyacı üçün ayırarlar. Onların bu barədə, yaxşı mənada, rəqabətləri vardır. Burada ən yaxşı xüsusiyyət də odur ki, kömək edən, kiməsə əl tutan adamın adı bilinmir. Toy və yaslarda elliklə iştirak edilir. Cavanlar tərəfindən kəndimizdə şadlıq sarayı tikilib. Toya dəvətnamə paylanmır, hamı bir nəfər kimi toyda iştirak edir. Ağsaqqallarımız, yaşlılar və cavanlarımız oturacaqları yerə qədər bilirlər, süfrəyə qətiyyən içki qoyulmur, qadınlarımız toyda əxsam iştirak edirlər. Bizdə ən böyük cəza isə ictimai qınaq və tənbehdir. Bacar o qınağa tuş gəlməyəsən, – deyir müsahibim. Kəndimizdə hər yerdə ədəb-ərkan, hörmət qorunub saxlanılır. Meydanda ağsaqqal oturubsa, cavanlar mütləq ondan arxada oturarlar. Burada bir-birini, adətən, "Hacı", "Kərbəlayı", "Məşədi", – deyə çağırırlar. Çünki kənd əhalisinin çoxu müsəlman üçün vacib bilinən müqəddəs yerləri ziyarət edib. Yaşlı qadınlarımız başlarına çarşab, kəlağayı örtür, cavan, gənc qadınlarımız isə müasir, amma yenə də milli mentalitetə uyğun geyinirlər. Əvvəllər ailədə qızların oxumasına səthi yanaşılsa da, indi ali təhsil müəssisələrinə qəbul olan məzunlarımızın əksəriyyəti qızlardır. Qızım, sevindirici cəhətlərdən biri də odur ki, bölgəmizə gələn turistlərdən də kəndimiz haqqında xoş sözlər eşidirik. Sizə bir misal çəkim. Gənzədə doğulub böyüyən Xəzər Şirməmmədov adlı gəncimiz hazırda Amerikanın tanınmış ali təhsil ocaqlarından biri olan Harvard Universitetində təhsil alır. O, yayda həmin universitetin professor-müəllim heyəti ilə Gənzəyə gəzməyə gəlmişdi. Amerikalı müəllim mənə dedi ki, bu kəndə gələn gündən buranın insanlarının bir-birinə nə qədər mehriban, yaxın olduqlarını gördüm. Burada qaldığım müddət ərzində bunun səbəbini bilmək istəyirdim. Bir gün kəndi gəzərkən baxdım ki, hər kəs bir-birinə salam verir. Dünyanın bir çox yerini gəzmişdim, amma belə bir halla heç rastlaşmamışdım. Düşündüm ki, əgər bunlar bir-birilərinə salam verib, xoş əhval yaradır, ünsiyyət qururlarsa, burada mütləq birlik, yekdillik, mehribançılıq olmalıdır. Mən cavabı bu zaman tapdım, – dedi amerikalı professor.

Bütün işlərdə olan birlik, bərabərlik, muxtar respublikanın hər bir nöqtəsində olduğu kimi, bizim kəndimizin də əsas rəmzidir. Bura gələn qonaqların da xoş əhval-ruhiyyə ilə kəndimizdən ayrılması isə hər bir gənzəli üçün qürurvericidir.

### *Milli-mənəvi dəyərlərin simvoludur buradakı dini-tarixi abidələr*

Gənzə kəndində milli-mənəvi dəyərlərimiz qorunub yaşadılır. Bunu buradakı tarixi, dini abidələrin timsalında aydın görmək olur. Qürbət Əliyev deyir ki, kənddə tarixiliyi özündə qoruyub yaşadan iki məscid vardır. Maraqlı memarlıq üslubuna malik ibadət ocaqlarından biri olan Hacı Hüseynqulu məscidi kəndin mərkəzində yerləşir. Onu Hacı Hüseynqulu adlı nüfuzlu şəxs tikdirib, vəfatından sonra özü də məscidin cənub divarının qarşısında dəfn olunub. Məscidin bərpası zamanı başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, 16-cı əsr" sözlərinin həkk edildiyi məlum olub. Təmir zamanı cənub-qərb tərəfində gözəl bir minarə ucaldılıb. Minarənin üstündə belə yazılıb: "Məscidin minarəsi 2000-ci ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilib". Kəndin digər bir ibadət yeri Məmmədhəsən məscididir. Hər iki məsciddə yas mərasimləri keçirilir, həmçinin məhərrəmlik və Ramazan aylarında burada dini mərasimlər icra olunur. XV yüzilliyə aid olan Gənzə hamamı isə Naxçıvanın ən qədim abidələrindən hesab edilir. Hamam Hacı Hüseynqulu məscidinin şimal-şərq tərəfində yerləşir. Ümumi sahəsi 213 kvadratmetr olan hamamın əsas və köməkçi otaqları iki günbəzlə örtülüb. Bu tarixi abidəni digər orta əsr hamamlarından fərqləndirən cəhət onun divarlarının, günbəz və tağ-tavanlarının dağ daşı ilə inşa olunmasıdır. Hamamın içərisi günbəz və tağ-tavanının mərkəzində qoyulmuş baca vasitəsilə işıqlandırılır. Gənzə qəbiristanlığı isə kəndin qədim tarixi olduğunun göstəricisidir. Bu qəbiristanlıq kəndin içərisində yerləşir. Başdaşılarının üzərində ərəb əlifbası ilə yazılmış kitabələr qəbiristanlığın XI-XVIII əsrlərə aid olduğunu deməyə imkan verir. Kənddən şimalda Sınağan qalası yerləşir. Müsahibim deyir ki, qaladan kənd əhalisi bir zamanlar sığınacaq yeri kimi istifadə edib. Kəndin içərisində orta əsrlərə aid pirin, hamamın və qəbiristanlığın olması Gənzədə çox qədim zamanlardan yaşayışın mövcudluğunu deməyə əsas verir, – deyə müsahibim bildirir.

### *Şəhid atası ilə söhbət, böyük qələbəyə inam*

Tahir Hüseynov kəndin tanınmış xeyriyyəçilərindən biri, həm də şəhid atasıdır. Oğlu Ceyhun Hüseynov 17 aprel 1994-cü ildə Goranboyu və Tərtəri birləşdirən nöqtədə yerləşən, bu gün artıq müzəffər Ordumuz tərəfindən düşməndən azad edilmiş Talış kəndi uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasına şəhid olub. Müsahibim deyir ki, o vaxtdan 26 il keçsə də, elə bilirəm, oğlum ölməyib, sağdır. Ona görə belə düşünürəm ki, şəhidlərimiz torpağın altına yox, onları sevən milyonların qəlbinə köçür. Bu gün öz qanı, canı bahasına Vətənin müdafiəsi uğrunda gedən döyüşlərdə düşmənə meydan oxuyan cəsur oğullarımızla fəxr edirik. Həmin igidlərdir ki, oğlumun şəhid olduğu Talış kəndini də yağı tapdağından azad edib. Ali Baş Komandanımızın hər dəfə dediyi ***"Şəhidlərimizin qanı yerdə qalmayacaq"*** kəlamının bu gün torpaqlarımızın işğaldan azad edilməsi ilə yerinə yetirildiyinin şahidiyik. Prezidentimizin qətiyyəti, iradəsi, əzmi, xalqımızın vətənpərvərlik duyğularının birgə həmrəyliyi ilə şanlı Ordumuz tarixin ən şərəfli səhifələrini yazır. Tezliklə işğaldan azad olunmuş bütün torpaqlarımıza qovuşacağıq, 30 illik həsrətimiz sona yetəcək. O zaman oğlumun da mübarək ruhu sevinəcək.

***Gənzə haqqında nə qədər desək, nə qədər yazsaq, yenə də azdır. Çünki qədim tarixi, adət-ənənələrə, milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilən bu kənd mənfur düşmənlə üz-üzə olmasından qorxmur, öz dəyərlərini unutmur, qurub-yaratmaq üçün çalışır. Bu da deməyə imkan verir ki, Gənzə, eləcə də digər sərhəd kəndlərimiz tarixi yaddaşımız və sabaha inamımızın ən qiymətli nümunələridir.***

**Güntac ŞAHMƏMMƏDLİ**

*Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən birini əhalinin məşğulluğunun artırılması, işaxtaranların sosial müdafiəsinin gücləndirilməsi təşkil edir. Bu məqsədlə görülən tədbirlər yeni açılan iş yerlərinin sayının artmasına, işaxtaranların özünüməşğulluğunun təmin edilməsinə və səmərəli məşğulluğun inkişafına gətirib çıxarır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurlu icrası son illərdə bu sahədə həyata keçirilən dövlət əhəmiyyətli tədbirlərin əhatəsinin genişlənməsinə şərait yaratmışdır. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında qəbul olunmuş Fəaliyyət Proqramında qeyd olunduğu kimi:* ***"Qarşıdakı dövrdə də ulu öndərin yoluna sadiq qalmaqla Naxçıvan Muxtar Respublikasının inkişafı təmin edilməli, əhalinin yaşayış səviyyəsi daha da yaxşılaşdırılmalı, yeni istehsal sahələri və bununla bərabər iş yerləri yaradılmalı, sosial sahələrin inkişafına diqqət artırılmalıdır".***

*Dövlət proqramı icra olunur*

# Səmərəli məşğulluğun inkişafı diqqət mərkəzindədir

Dövlət proqramında 36 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuş, onların icrası ilə bağlı işlər 2020-ci ilin üçüncü rübündə də davam etdirilmişdir. Boş iş yerləri barədə məlumatların vaxtında təqdim edilməsinin əhalinin məşğulluğunun təmin olunmasında mühüm rolu vardır. Əldə edilən məlumatların sistemləşdirilməsi işaxtaran şəxslərin peşə və bacarıqlarına uyğun işlə təmin olunması üçün baza yaratmış olur. Eyni zamanda bu məlumatlar əmək bazarının keyfiyyətli monitorinqinin aparılmasına və düzgün proqnozlaşdırma işinin həyata keçirilməsinə imkan yaradır. İyul-sentyabr aylarında Dövlət proqramının icrasına uyğun olaraq boş iş yerlərinin toplanılmasının təmin olunması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 705 fiziki, 8 hüquqi şəxs olmaqla, ümumilikdə, vergi orqanlarında qeydiyyatdan keçmiş 713 şəxs haqqında məlumatlar təqdim edilmişdir. Həmçinin bu dövrdə işəgötürənlərin boş iş yerləri barədə məlumatları vaxtında göndərməsinə nəzarət həyata keçirilmiş, 242 müəssisə üzrə 980 boş iş yeri təqdim olunmuşdur. Üçüncü rübdə müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək üçün 114-ü dövlət, 64-ü özəl olmaqla, ümumilikdə, 178 müəssisədə sorğu keçirilmişdir. Proqramın icrasına uyğun olaraq Dövlət Miqrasiya Xidmətinin təqdim etdiyi məlumatlar əsasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən muxtar respublikada yerli əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və əmək miqrasiya proseslərinin tənzimlənməsi sahəsindəki işlərin effektivliyinin artırılması məqsədilə 2021-ci il üçün əmək miqrasiyası kvotası təsdiq edilmişdir. Kvota 13 iqtisadi fəaliyyət sahəsi üzrə 500 yerdən ibarətdir. Həmçinin sosial tərəfdaşlıq mövzusunda işəgötürənlərlə 3 onlayn görüş keçirilmiş və bu tədbirlərdə əcnəbi işçi qüvvəsinin cəlb edildiyi yerlərin tələbatının yerli əmək bazarından təmin edilməsinin məqsədəuyğunluğu barədə məlumat verilmişdir.

Aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi işaxtaranlara işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlərə isə müasir tələblərə cavab verən ixtisaslı kadrların seçimini aparmaq imkanı qazandırır. Dövlət proqramının icrası məqsədilə həyata keçirilən bu tədbirlər muxtar respublikanın əmək bazarında sabit vəziyyəti şərtləndirən müsbət meyillərin formalaşmasına şərait yaratmaqdadır. Üçüncü rübdə bu istiqamətdə təşkil olunan əmək yarmarkalarında 212 müəssisə tərəfindən 1613 boş iş yeri təqdim edilmiş, 223 nəfərin müvafiq işlə təmin olunması üçün göndəriş verilmişdir. Həmçinin sentyabr ayında səhiyyə işçiləri üçün təşkil edilmiş əmək yarmarkasında 540 iş yeri təqdim edilmiş, 67 işaxtarana göndəriş verilmiş, onlardan 57-si işlə təmin olunmuşdur. Müvəqqəti məşğulluğun təmin edilməsi məqsədilə 196 işaxtaran sosial əhəmiyyətli haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. Üçüncü rübdə muxtar respublikada 876 nəfər məşğulluq xidməti orqanları tərəfindən vakant iş yerlərinə göndərilmişdir ki, onların 320-si gənc, 182-si qadın, 3-ü isə sağlamlıq imkanları məhdud şəxsdir.

Dövlət proqramında cəmiyyətin müxtəlif sosial kateqoriyalarına məxsus şəxslərin məşğulluğunun təmin edilməsi ilə bağlı müəyyən edilmiş tədbirlər mütərəqqi əhəmiyyətə malikdir. Bu istiqamətdə nəzərdə tutulan tapşırıqların vaxtında icrası sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin dövlət qayğısı ilə əhatə olunduğunun bariz nümunəsidir. Üçüncü rübdə Naxçıvan şəhəri, Babək, Ordubad, Culfa rayonları üzrə dövlət və özəl müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin işlə təmin edilməsi məqsədilə 2021-ci il üçün 105 kvota yeri müəyyən olunmuşdur. Eyni zamanda bu dövrdə 6 sosial qayğıya xüsusi ehtiyacı olan şəxs tərəfindən hazırlanmış 27 əl işinin satışı təmin edilmişdir.

İnsan amili başlıca məqsəd olan muxtar respublikada sosial-iqtisadi inkişaf tədbirləri reallaşdırılarkən məşğulluq siyasəti daim ön planda tutulur. Yeni quruculuq ünvanları muxtar respublikanın iqtisadi qüdrətini möhkəmlətməklə yanaşı, işaxtaranların faydalı məşğulluğunun təmin olunmasına da xidmət edir. İyul-sentyabr aylarında muxtar respublikada yeni yaradılan istehsal və xidmət sahələrində dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına, ümumilikdə, 63 yeni iş yeri yaradılmış, 650 iş yerinin açılması istiqamətində işlər davam etdirilmişdir.





Muxtar respublika iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, təbii ehtiyatlardan səmərəli istifadə olunması da, öz növbəsində, əmək resurslarının məşğulluq imkanlarının artması ilə nəticələnir. Üçüncü rübdə bu istiqamətdə tədbirlər davam etdirilmiş, 2 bitki toxumlarından yağ, 1 doşab istehsalı sahəsinin, yerli resurslara əsaslanan 21 təsərrüfatın, 1 müəssisənin yaradılması, 2 təsərrüfatın isə genişləndirilməsi başa çatdırılmışdır.

Yaşadığımız cəmiyyətdə sosial-iqtisadi həyatın bütün sahələrində qabaqcıl texnologiyaların tətbiqi obyektiv zərurətə çevrilmişdir. Məşğulluq isə sosialyönümlü inkişafın başlıca parametrlərindən birini təşkil etdiyi üçün innovativ yeniliklərdən bu sahədə istifadə olunması iş keyfiyyətinin artmasına təkan verməkdədir. Dövlət proqramının icrası üçün iyul-sentyabr aylarında innovasiyalar tətbiq olunan yeni iş yerlərinin yaradılması məqsədilə Naxçıvan şəhəri üzrə 1 hüquqi şəxsə 5 milyon manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi peşəyönümlü tədbirlərin səmərəsini artıran mühüm faktordur. İşaxtaranların peşə hazırlığının təşkili əmək resurslarının düzgün istiqamətləndirilməsinin əsas şərtidir. Üçüncü rübdə proqramda bu məqsədlə nəzərdə tutulan tədbirlər davam etdirilmiş, xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədilə Naxçıvan Regional Peşə-Tədris Mərkəzində 16 nəfər kursa cəlb edilmiş, Təhsil Nazirliyi tərəfindən təşkil edilən aşpaz kursunu 15 nəfər bitirmişdir. Milli və xalq tətbiqi sənət növlərində peşə kurslarının təşkili diqqətdə saxlanılmış, toxucu peşəsi üzrə təşkil edilən kursa 12 müdavim cəlb edilmiş, əvvəlki aylarda başlamış xalçaçı kursunu 17 nəfər bitirmişdir. Ümumilikdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunmuş 8 kursa 117 nəfər cəlb edilmiş, Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrindəki kursları 197 nəfər bitirmişdir. Eyni zamanda Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində təşkil edilən qazanxana maşinisti kursuna 12 məhkum cəlb olunmuşdur. Üçüncü rübdə 22 sağlamlıq imkanları məhdud və evdar qadınla müvəqqəti məşğulluqlarının təmin edilməsi məqsədilə yun corab və şərf toxunması üçün əmək müqavilələri bağlanmışdır.

Dövlət proqramında müəyyən olunmuş əhəmiyyətli tədbirlərdən biri də Naxçıvanda aztəminatlı ailələrin sosial müdafiəsi ilə bağlı çoxsaylı layihələrin davam etdirilməsidir. Özünüməşğulluq da bu sahədə müsbət nəticələri ilə diqqətçəkən tədbirlərdəndir. Muxtar respublikada iyul-sentyabr aylarında 64 aztəminatlı ailənin özünüməşğulluğunun təmin olunmasına, fərdi təsərrüfatının yaradılmasına və inkişaf etdirilməsinə köməklik göstərilmişdir. Həmin ailələrdə 33 sağlamlıq imkanları məhdud, 3 müharibə veteranı, 13 ailə başçısını itirən, 10 nikahı pozulmuş, 4 cəzaçəkmə müəssisələrindən azad edilmiş, 2 həyat yoldaşı həbsdə olan sosial statuslu şəxslər vardır. Həmçinin əvvəlki dövrlərdə özünüməşğulluq proqramına cəlb edilmiş 6 nəfər təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirdiyi üçün əlavə olaraq kənd təsərrüfatı avadanlığı ilə təmin edilmişdir. Culfa rayonunda sağlamlıq imkanı məhdud 1 fiziki şəxsə tingçilik təsərrüfatının yaradılması məqsədilə 4 min manat, Sədərək rayonunda meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi məqsədilə 1 fiziki şəxsə 8 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Təhlükəsiz iş şəraitinin təşkili işçilərin əmək hüquqlarının təmin edilməsinin vacib göstəricisidir. Bu məqsədlə görülən işlər insan amilinə verilən dəyərin ölçüsünü müəyyənləşdirməkdədir. Üçüncü rübdə Dövlət proqramının icrasına uyğun olaraq 7 sahibkarlıq obyektində aparılan nəzarət zamanı əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işə cəlb edilən 18 işçi aşkar edilmişdir ki, həmin işəgötürənlərə qanunvericiliyin tələbləri izah olunmuş, işçilərlə yeni əmək müqaviləsinin bağlanması təmin edilmişdir. Muxtar respublika üzrə, ümumilikdə, 10 obyektdə nəzarət aparılarkən fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 39 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 9 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Eyni zamanda yeni əmək fəaliyyətinə başlayan 495 sığortaolunana elektron qaydada sosial sığorta şəhadətnaməsi sifariş edilmişdir.

Əməyin mühafizəsinin etibarlı təşkilində maarifləndirmə işi də effektiv nəticə verməkdədir. İşçilərin təliminin və əlavə təhsilinin bütün formalarında təhlükəsiz iş üsullarından istifadənin öyrədilməsi əsas vəzifələrdəndir. Üçüncü rübdə əməyin mühafizəsi və kadrlar üzrə biliklərin artırılması məqsədilə onlayn qaydada 38 müəssisənin mütəxəssislərinin iştirakı ilə Naxçıvan Regional Peşə-Tədris Mərkəzində 2, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 1 seminar təşkil edilmişdir. Bu istiqamətdə maarifləndirici bukletlər hazırlanaraq həmin müəssisələr üzrə işəgötürənlərin elektron ünvanlarına göndərilmişdir. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə 184 nəfərlə müqavilə bağlanmışdır.

Proqramda məşğulluq sahəsində məlumatlandırma tədbirlərinin həyata keçirilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. Üçüncü rübdə də muxtar respublikanın kütləvi informasiya vasitələrində məşğulluq sahəsində görülmüş işlərə dair məlumatların verilməsi davam etdirilmişdir. Bu məqsədlə Naxçıvan Dövlət Televiziyasında 7 veriliş, 26 süjet, Naxçıvan Dövlət Radiosunda 5 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 13, rayon (şəhər) qəzetlərində 15 yazı çap olunmuşdur.

*Görülən işlər deməyə əsas verir ki, Naxçıvanda əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması işi və müvafiq Dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası yeni nailiyyətlərlə davam edir.*

***"Şərq qapısı"***

# Muxtar respublikada soyuducu anbarların fəaliyyəti genişləndirilir

*Muxtar respublikada əhalinin payız-qış mövsümündə kənd təsərrüfatı məhsullarına olan tələbatının tam və dolğun şəkildə, ekoloji cəhətdən təmiz, yerli istehsal məhsulları ilə təmin edilməsində soyuducu anbar və istixana komplekslərinin rolunu, xüsusilə vurğulamaq lazımdır. Soyuducu anbarların yaradılması payız və qış dövründə istehlakçılara keyfiyyətli meyvə və tərəvəzin çatdırılması ilə yanaşı, ixracı da artırmağa imkan verir. Eyni zamanda bu anbarların hər biri yeni iş yerlərinin açılması deməkdir ki, bu da əhalinin məşğulluğunun təmin olunmasında öz əksini tapır.*

Qeyd edək ki, soyuducu anbarlara, əsasən, muxtar respublikada yetişdirilən yerli meyvə-tərəvəz məhsulları tədarük olunduğundan aqrar sahənin inkişafına, istehsalçıların öz işini genişləndirməsinə böyük stimul yaratmaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə İqtisadiyyat Nazirliyinin qarşısına daxili bazarın vəziyyətinin təhlili, mövsümə uyğun əsas ərzaq məhsullarına olan tələbatın müəyyənləşdirilməsi, kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükü və onların ehtiyatlarının yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur.

Bu vəzifələrin yerinə yetirilməsi ilə bağlı cari ilin ötən dövrü ərzində bir sıra tədbirlər həyata keçirilmiş, mövsümündə tələbatdan artıq istehsal olunan kənd təsərrüfatı məhsullarının uzun müddət saxlanması üçün soyuducu anbar komplekslərinin tikilərək istifadəyə verilməsi və genişləndirilməsi diqqətdə saxlanılmışdır. Bu məqsədlə həmin sahənin inkişafına 2020-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 351 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Bu gün muxtar respublikada sahibkarların şəxsi investisiyası və dövlət maliyyə dəstəyi hesabına yaradılan 42 soyuducu anbarın ümumi tutumu 19 min 390 tondur. Payız-qız mövsümünə hazırlıqla əlaqədar Naxçıvan şəhəri, Şərur, Ordubad, Kəngərli, Şahbuz və Sədərək rayonlarındakı soyuducu anbarlara meyvə-tərəvəz məhsullarının tədarükü davam etdirilir. Cari ilin tədarük dövründə həmin anbarlara 6921 ton kartof, 277 ton soğan, 531 ton alma, 150 ton üzüm tədarük olunmuşdur. Payız mövsümünün sonunadək bu anbarlara daha çox kənd təsərrüfatı məhsullarının tədarük ediləcəyi gözlənilir.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyinin təsisçisi olduğu "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən meyvə və tərəvəz məhsullarının nağd alınaraq tədarük olunması yerli istehsalçıların fəaliyyətini stimullaşdırmaqla yanaşı, əkin sahələrinin genişləndirilməsində də böyük rol oynayır. Cari ildə anbara dəyəri nağd ödənilməklə 1111 ton kartof, 250 ton soğan, 20 ton alma tədarük olunmuşdur.

Muxtar respublikada əhalinin meyvə və tərəvəz məhsullarına artan tələbatı, yeni əkinəyararlı torpaq sahələrinin istifadəyə verilməsi ilə kənd təsərrüfatı məhsullarının istehsalının yüksəlməsi, aqrar sektorda intensiv metodların tətbiq olunması ilə məhsuldarlığın günbəgün artması soyuducu anbarların sahələrinin genişləndirilməsini zəruri edir. Bu məqsədlə cəmiyyət tərəfindən Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaiti hesabına qurulması nəzərdə tutulan 800 ton tutumlu yeni soyuducu anbarın layihələndirmə işləri tamamlanmış və tikintisinə başlanılmışdır.

Həmçinin soyuducu anbarlara tədarük olunan məhsulların keyfiyyət göstəricilərinin keyfiyyət standartlarının tələblərinə uyğunluğuna nəzarət nazirliyin tabeliyində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən həyata keçirilir. Cari ilin ötən tədarük dövründə laboratoriya tərəfindən 33 halda kartof, soğan və alma məhsullarından nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilmiş, onların normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***




## Vətənpərvər gənclik müstəqil və qüdrətli Azərbaycan deməkdir

*Vətənini sevən, cəsur və qəhrəman övladlar müstəqil, qüdrətli Azərbaycanın uğurlu gələcəyinin zəmanətidir. O qəhrəman övladlar ki bu gün öz canları, qanları bahasına 30 ilə yaxın işğal altında olan Azərbaycan torpaqlarına azadlığı daddırırlar. O qəhrəman övladlar ki bütün həyatlarını Vətənə həsr ediblər, ölsələr belə, ölümün ən şərəfli olanını, Vətən üçün ölməyi – şəhidliyi seçirlər. Və o qəhrəman övladlar ki, şəhid olarkən son sözləri "Azərbaycan"dır. Belə qəhrəmanları isə sadəcə, Azərbaycan xalqı kimi qəhrəman bir xalq yetişdirə bilərdi. Bu gün səngərdə şəhidi olduğumuz gənclərimizin şücaət və qəhrəmanlığı xalqımızın vətənpərvər gənc yetişdirmək missiyasının öhdəsindən necə uğurla gəldiyini bir daha sübut edir.*

Hər bir millətin gələcəyi onun gənclərindən asılıdır. Zaman-zaman ən mötəbər kürsülərdən səslənən və nəsillərin bir-birini əvəz etməsi fonunda gəncliyə böyük ümidləri ifadə edən bu deviz-şüar həmişə aktual olub. Çünki bu gün həyatın bütün sahələrində quruculuq işlərinin sükanı arxasında olan orta və yaşlı nəsli sabah gənclər əvəz edəcək. Ölkənin qurucuları, sahibləri onlar olacaq. Heç şübhəsiz ki, hər bir ölkənin, xalqın gələcəyinin necə olması bugünkü gəncliyin hansı ideallarla yaşamasından, övladı olduğu Vətəni, xalqı qarşısında borc, məsuliyyət hissini necə dərk etməsindən, vətənini, xalqını nə dərəcədə sevməsindən, milli-mənəvi özünüdərkindən asılıdır. Əgər biz gələcəyimizi xoşbəxt, çiçəklənən görmək istəyiriksə, sadalanan cəhətlərin bugünkü gənclikdə olmasına çalışmalıyıq. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri, böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu. Ümummilli liderimiz öz çıxışlarının birində qeyd edirdi ki, müasir gənclərimiz milli və bəşəri dəyərlər ruhunda tərbiyə olunmalı, onlar tariximizi, dəyərlərimizi yaxşı bilməli, soykökümüzdəki, mədəniyyətimizdəki, adət-ənənələrimizdəki, milli-mənəvi varlığımızdakı müsbət və mütərəqqi cəhətləri dərindən öyrənməlidirlər. İdeyanın mərkəzində isə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi durur. Ona görə də gənclərin vətənpərvərlik tərbiyəsi, onlara Vətənə, xalqa məhəbbət hisslərinin aşılanması həmişə olduğu kimi, bu gün də diqqət mərkəzindədir.

Vətənpərvərlik çox geniş məna daşıyır. Vətənpərvərlik təkcə müharibədə Vətəni silahla müdafiə etmək demək deyil. İnsan gərək həyatının hər dövründə, fəaliyyətinin bütün sahələrində öz Vətəninin, ölkəsinin qayğıları ilə yaşasın, onun həm iqtisadiyyatının, həm siyasətinin, həm də mədəniyyətinin inkişafına çalışsın. Əsl vətənpərvər insan öz fəaliyyətini bu müqəddəs məramа xidmət etmək üzərində qurur, Vətənin, xalqın suverenliyi, müstəqilliyi, inkişafı uğrunda çalışır.

Bu gün muxtar respublikada gənclərin vətənpərvər ruhda tərbiyə olunması ən çox diqqət mərkəzində saxlanılan məsələlərdən biridir və bu sahədə bir çox tədbirlər həyata keçirilir. Belə ki, gənclər siyasəti çərçivəsində müxtəlif tədbirlər, aksiyalar, hərbi idman oyunları təşkil edilir, mütəmadi olaraq yeni layihələr icra olunur.

Son illərdə muxtar respublikamızda gənclərdə Vətənə sevgi hisslərinin aşılanması, vətənpərvərlik ideyalarının təbliği istiqamətində xeyli işlər görülüb. Bu məqsədə xidmət edən tarix-diyarşünaslıq muzeylərinin sayı xeyli artırılıb, həmçinin gənclərin Vətənimizi, şəhidlərimizi daha dərindən tanımasına imkan verən yeni layihələrə start verilib.

Gənclərlə aparılan vətənpərvərlik tərbiyəsi işinin mühüm istiqamətlərindən biri də ayrı-ayrı şəxsiyyətlərin, milli qəhrəmanların şəxsi nümunələrindən istifadədir. Tariximizdə, müasir dövrümüzdə həyatı gənclərə vətənpərvərlik nümunəsi olan şəxsiyyətlər çoxdur. Yeniyetmə və gənclərin Milli qəhrəmanlar ilə, torpağımız uğrunda savaşda böyük igidliklər göstərmiş Vətən oğulları ilə keçirilən görüşləri, onların həyat və döyüş yolu ilə yaxından tanış olmaları da gənclərdə vətənpərvərlik hisslərinin formalaşmasına güclü təsir göstərən amillərdəndir.

Azərbaycan şanlı tarixi və əfsanəvi qəhrəmanları ilə həmişə fəxr edir. Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz Vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetişdirib, yetişdirir və həmişə yetişdirəcəkdir. Bu gün, demək olar ki, hər bir Azərbaycan gənci dövlətimizin müstəqilliyinin təmin edilməsini özünün əsas vəzifəsi və məqsədi hesab edir, dərk edir ki, Azərbaycan üçün dövlət müstəqilliyi ən böyük hadisədir. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***"Bu gün Azərbaycan tam başqa bir ölkədir. Bu gün yeni nəsil yetişib. Müstəqillik şəraitində yeni vətənpərvər, həm mənəvi, həm də fiziki cəhətdən güclü insanlar yetişibdir".*** Hazırda səngərdə və arxa cəbhədə baş verən hadisələr gənclərimizin və bütövlükdə, Azərbaycan xalqının vətənpərvərliyinin, Vətənə, millətə nə qədər bağlı olmasının ən bariz göstəricisidir. Belə ki, ön cəbhədəki vətənpərvər gənclərimiz səngərdə düşmənə göz açmağa imkan vermir, demək olar ki, hər gün şad xəbərlərlə bizi sevindirir, arxa cəbhədə döyüş əmrini səbirsizliklə gözləyən vətənpərvər gənclərimiz isə onlara hərtərəfli dəstək olmaqla yanaşı, günümüzün ayrılmaz tərkib hissəsi olan sosial şəbəkələr vasitəsilə ölkəmizin tarixini, haqq səsini dünyaya çatdırır və bununla da Vətənə olan borclarını bacardıqları qədər yerinə yetirməyə çalışırlar. Bu cür vətənpərvər, qorxmaz, əzmkar, iradəli, intellektli və bacarıqlı gəncləri olan bir ölkənin böyük uğurlardan ibarət gələcəyini təsəvvür etmək heç də çətin deyil. Biz əminik ki, cənab Prezidentimizin ***"Müharibə başa çatandan sonra nəinki bölgə, həm də dünya dəyişəcək. Hər kəs bizim gücümüzü gördü. Biz bu bölgədə yeni strateji mənzərə, strateji baxış yaratmalıyıq. Müharibədən sonra Azərbaycanın, bölgənin yeni dövrü başlanacaq"*** sözləri ilə xəbər verdiyi həmin gələcəkdə Azərbaycan gəncləri öhdələrinə düşən məsuliyyəti layiqincə yerinə yetirəcəklər. Çünki namusunu hifz etməyə və bayrağını yüksəltməyə cümlə gənclər müştaqdır, Azərbaycan!

**Valeh MAHMUDOV**
***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin əməkdaşı***

## Mənəvi qidanı almağa möhtacam, ŞUŞA

### *Addım-addım, qarış-qarış sənə doğru yaxınlaşırıq*

*Şuşa Qarabağın incisidir*

Özümü dərk etdiyim gündən torpaqlarımızın bir çoxunun işğal altında olduğunu görmüşəm. O torpaqlarımızın hər bir qarışı, hər bir zərrəsinin bizim üçün nə qədər qiymətli olduğunu dərk etmişəm. Onların baş tacı isə Şuşa şəhəridir. Şuşa Azərbaycanın dilbər guşəsi olan Qarabağın incisidir. Təmiz havası, vüqarlı dağları, əsrarəngiz təbiəti, şəfalı suyu, maddi mədəniyyət nümunələri ilə dillər əzbəri olub. Məşhur Qarabağ atları isə nəinki Azərbaycanda, hətta bütün dünyada adla tanınıb. Hələ ilahi səsləri, muğamları demirəm. Suyundandır, havasındandır cənnətməkanımın bilmirəm. Bu, qarabağlı həmvətənlərimə genlə keçən fitri istedaddır desək, yanılmarıq yəqin ki...




Şuşa şəhəri Pənahəli xan Cavanşirin adı ilə bağlıdır. Belə ki, 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Pənahəli bəy xan elan edilir və Qarabağ xanlığını düşmən hücumundan qorumaq məqsədilə alınmaz bir qala tikdirməyi qərara alır. 1750-ci ildə Qarabağın səfalı guşəsində, üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş dağ yaylasında yeni qalanın bünövrəsini qoyur. Pənahəli xan hasarın içərisində yeni binalar və özü üçün saray tikdirir. Yerli əhali bu şəhəri Pənahəli xanın şərəfinə "Pənahabad" adlandırır. Şiş uclu dağların əhatəsində yerləşən Pənahabad əvvəllər "Şişə", sonralar isə "Şuşa" adlandırılır.

Çar Rusiyası dövründə də bütün Qarabağın inzibati-iqtisadi mərkəzi olmuş, inkişaf etmiş bu şəhərin mənəvi pasportu olan Cıdır düzü, memarlıq inciləri Şuşanı qədim mədəniyyət mərkəzlərindən biri kimi tanıtmışdır. Hər biri tarixin əvəzsiz yadigarı olan Xan, Qaxal mağaraları, Şuşa qalası, Xurşidbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair, rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahim xanın və onun böyük qızı Qara Böyük xanımın qəsrləri, "Gəncə darvazaları", Göhvər ağa məscidi, əsas ticarət mərkəzi olan "Rastabazar", möhtəşəm qala divarları, memarlıq üslubu ilə inşa olunan digər tikililər bu qədim Azərbaycan şəhərinin gözəlliyini daha da əsrarəngiz etmişdir. Şuşa havasının təmizliyi, saflığı və müalicəvi əhəmiyyəti baxımından kurort şəhəridir. Bu baxımdan nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da öz səfalı yerlərinə, istirahət guşələrinə görə məşhur idi. Şuşada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi, haqlı olaraq, bu şəhərin mədəniyyətimizin ən zəngin beşiyi adlandırılmasına səbəb olmuşdur. Bu abidələrin çoxu XVIII-XIX əsrlərə aiddir.

*Sən mənim könlümdə çarpan ürəksən, Şuşam...*

Bir xalq olaraq Şuşamızın gözəlliyindən doya bilməmişik. Mənfur düşmən bir çox torpaqlarımızla yanaşı, 1992-ci ildə Şuşanı da bizdən alıb qoparıb, buradakı mədəniyyət abidələrimiz talan, tarixi abidələrimiz isə darmadağın edilib. Erməni murdarlarının bu ağlasığmaz hərəkətləri isə yalnız onların özünə yaraşandır. Çünki xislətləri terrorçuluqdur. Xalqımıza məxsus olan gözəl maddi mədəniyyət nümunələrimizə, bənzəri olmayan torpaqlarımıza göz dikmək, adət-ənənələrimizi adlarına çıxarmaq, riyakarlıq etmək adətidir qarı düşmənimizin.

Hər bir azərbaycanlı kimi, mənim də arzum cənnətməkanımız Şuşa şəhərinə ayaq basmaqdır. Oranı doyunca seyr edib, ətrini nəfəsimə çəkib, bir ovuc torpağını özümlə evimizə gətirməkdir. Başı bəlalı, Şuşam... Sən saysız çətinliklərdən keçsən də, qürurunu, vüqarını itirməmisən düşmən qarşısında. Çünki sən Azərbaycan torpağısan, sən azərbaycanlıların ayağı dəyən, Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərini yetirən torpaqsan...

Dilbər guşələrimizdən olan Şuşamız haqqında çox yazılıb, çox deyilib. Amma gedib öz gözlərimlə görməyi o qədər arzu edirəm ki, məhz bunun üçün yuxularım ərşə çəkilib. Yorulmuşam artıq videokadrlardan izləməkdən, fotoşəkillərinə həsrətlə baxmaqdan. Hələ balaca ikən evdə valideynlərimdən, məktəbdə isə müəllimlərimdən eşitdiklərimə görə, sənin torpağına ayaq basan kəsə mənəvi qida bəxş edirsən. Bax o mənəvi qidanı almağa möhtacam, Şuşa... Sən Azərbaycanımızın alınmaz qalası, mədəniyyət məbədimiz olan tarixi abidələr məkanısan... Sən mənim könlümdə çarpan ürəksən, Şuşam.

Artıq illərdir, dağlarının başı qara buludlu, meşələri dumanlı olan Şuşanın qürbətdə qalan sarı bülbül kimi sirdaşının səsi kəsilib, xarıbülbülünün isə boynu bükükdür. Şuşa şuşalılarsız qalıb. Erməni vandalizminin qurbanı olan, düşmən gülləsindən "yaralanan", paytaxtda saxlanılan Bülbülün, Üzeyirin, Natəvanın heykəlləri doğma Vətəninə qayıdacağı günü gözləyir. Bir zamanlar dinc əhalisi qətl edilərək Vətənin bağrından qoparılmış torpaqlarımızı bu gün igid övladlarımız qanı-canı bahasına yenidən bizlərə qaytarır. Addım-addım, qarış-qarış, sənə doğru yaxınlaşırıq, Şuşa!

*Cıdır düzü igidlərin məskəninə çevriləcək. Bunu hər yeni gün aldığımız Qələbə xəbərləri təsdiqləyir*

Bilirsiniz, Şuşa haqqında daha çox yazmaq istərdim. O torpağa ayaq basıb, öz gözlərim ilə gördüyümü yazıb qəzet səhifələrində oxucularla paylaşmaq istərdim. Və mən bu arzuma çatacağıma bütün hisslərimlə inanıram. Ölkə başçısı cənab İlham Əliyevin dediyi kimi: ***"Biz hər gün qələbə gününü yaxınlaşdırırıq. Gün gələcək, Azərbaycan bayrağı Xankəndidə və Şuşada dalğalanacaqdır".*** Bəli, həmin günün olacağına ümidimiz sonsuzdur. Bütün ərazilərimiz kimi, Şuşa da düşmən əsarətindən qurtulacaq. Yenə qonaqlı-qaralı Cıdır düzü igidlərin məskəninə çevriləcək. Doğmalarının nəfəsinə həsrət qalan xarıbülbül əsrarəngiz gözəlliyi ilə hamını valeh edəcək. Bunu hər yeni bir gündə aldığımız Qələbə xəbərləri təsdiqləyir. Biz kiminsə torpağını istəmirik, öz doğma torpaqlarımıza qayıtmaq istəyirik. Yenidən həmin torpaqlarda yaşamaq istəyirik. Erməni murdarının doğma torpaqlarımızda nə işi? Ölkə başçısının dediyi kimi: ***"Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! ...Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"***

Nəyin bahasına olursa-olsun, başda Şuşa olmaqla, bütün işğal edilmiş torpaqlarımızın azad ediləcəyinə ümidimiz sonsuzdur. Necə ki Cəbrayılımız, Füzulimiz, Zəngilanımız, Qubadlımız düşməndən geri alındı, üçrəngli bayrağımız şərəflə ucaldıldı həmin torpaqlarda. Bu şərəfli yolda hamılıqla Ordumuzun, Ali Baş Komandanımızın ətrafında daha sıx birləşmişik. Müqəddəs Vətən torpaqlarının azad edilməsi bütöv xalq olaraq hər birimizin müqəddəs və ali borcudur. Tanrı möhtəşəm qələbə sevincini bizlərə yaşadan Azərbaycan Prezidentini, bu qələbəni əldə edən şanlı, müzəffər Ordumuzu qorusun! Biz sizinlə qürur duyuruq, Ali Baş Komandanımız! Biz zəfər çalacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!.. Eşq olsun Azərbaycan Ordusuna!..

**Nuray ƏSGƏROVA**

***İtmişdir***

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının ştampı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Kürçülü kənd sakini Kərimov Elxan Allahverdi oğlunun adına verilmiş JN-002^A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***

***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:*** **Güntac Şahməmmədli**

***Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.***

**Tiraj: 1500. Sifariş № 826**